1_Layout 1 15.03.2022 9:04 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 6 (620)
16 mart 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Müzəffər Komandanın qəhrəman əsgərləri

## *Daxili Qoşunlar "Dəmir yumruğ"un əsas zərbə güclərindən biridir*

**Birinci Qarabağ müharibəsi...**

**Yeni yaradılan, cəmi 40 gün öncə and içərək hərbi xidmətə başlayan cəsur igidlər Ağdam istiqamətindən döyüşə atıldılar, Ağdərədən Qubadlıya, Kəlbəcərdən Zəngilanadək savaşın getdiyi bütün ərazilərdə şərəflə döyüşdülər... Sıralarından 680 qəhrəmanı şəhid verdilər...**

**İkinci Qarabağ müharibəsi...**

**Vətən savaşının ilk dəqiqələrindən silaha sarıldılar, 44 gün ərzində erməni işğalçılarının başını əzdilər, belini qırdılar, Şuşada ucaltdıqları bayrağın timsalında örnək qəhrəmanlıq nümunələri yaratdılar... 66 şəhidlə ölməzlik dastanı yazdılar... Tarixi Zəfər paradında Müzəffər Ali Baş Komandanın önündən keçərək qələbə raportunu verdilər, həm də böyük himayədarları olan Ulu Öndər Heydər Əliyevin ruhu qarşısında daşıdıqları borcu ləyaqətlə ödədilər...**

Onlar Azərbaycanın savaş qəhrəmanlarıdır, dövlətçiliyimizə qarşı qəsdləri zərərsizləşdirən vətənpərvərlərdir, ictimai asayişin təminində canlarından keçən igidlərdir...

Onlar şanlı Daxili İşlər Nazirliyimizin fədakar Daxili Qoşunlarıdır...

### Vətənin etibarlı keşiyində

12 mart onların günüdür... Birinci Qarabağ müharibəsində hərbi əməliyyatlara başladıqları ilk tarix onlar üçün Ümummilli Lider tərəfindən belə əbədiləşdirilib... Və ötən dövrün elə hər günü də onlar üçün məhz belə qəhrəmanlıqla, hərbi andın layiqincə doğrulması ilə keçib...

Yarandığı gündən daim dövlətçiliyin keşiyində yenilməz əzmkarlıqla dayanan Daxili Qoşunların inkişaf və yüksəliş yolu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Daxili Qoşunlar Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində formalaşıb, fəaliyyətinin hüquqi bazası yaradılıb, davamlı inkişaf edib, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib.

Heydər Əliyev daxili işlər orqanlarının, o cümlədən, Daxili Qoşunların xidməti fəaliyyətini həmişə xüsusi diqqət mərkəzində saxlayıb. Təsadüfi deyildir ki, Ulu Öndər "Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir" - deməklə, bu xidmətin, ümumilikdə, dövlət həyatında necə mühüm rol oynadığını aydın göstərib.

### Qəhrəmanlıq salnaməsi

Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovla yubiley öncəsi görüşdük. Komandan dedi ki, Daxili Qoşunların şəxsi heyətinin fəaliyyətinin hər bir günü dövlətə, Vətənə, xalqa bağlılığı və xidməti anda dönməz sədaqəti əks etdirir: "Fəaliyyətimizin əsas göstəricilərindən biri də ərazi bütövlüyümüzün qorunması istiqamətində göstərdiyimiz qəhrəmanlıqlar idi. Heç bir zaman unutmadıq ki, Ulu Öndər Heydər Əliyev Birinci Qarabağ savaşında döyüşlərə başladığımız ilk günü Daxili Qoşunlar Günü kimi elan etdi. Bu həm də bizim üzərimizə qoyulan tarixi öhdəlik idi ki, müharibənin ədalətlə, qələbə ilə bitməsində ön sıralarda olmalı, yarımçıq qalmış işimizi zəfərlə yekunlaşdırmalıydıq. Daxili Qoşunların igid hərbi qulluqçuları Ümummilli Liderin ruhuna olan mənəvi borcu və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qarşımızda müəyyənləşdirdiyi tarixi vəzifəni böyük məsuliyyətlə, şərəflə, layiqincə icra edərək, "Dəmir yumruğ"un əsas zərbə güclərindən birinə çevrildilər".



Həqiqətən də, hər iki Qarabağ savaşının hərbi salnaməsi Daxili Qoşunların şəxsi heyətinin göstərdiyi qəhrəmanlıq, cəsurluq, şücaət faktları ilə zəngindir.

Daxili Qoşunların hərbi hissələri, ümumilikdə, 1992-1994-cü illərdə respublikamızın müdafiəsi və ərazi bütövlüyünün bərpası uğrunda şərəfli döyüş yolu keçdilər. Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 680 nəfər həlak oldu, 1178 nəfər isə yaralandı. 9 nəfər Milli Qəhrəman zirvəsinə yüksəldi...





### Murovdan Şuşayadək Zəfər yolu

Birinci Qarabağ müharibəsindən sonrakı dövrdə qoşunların xidməti fəaliyyəti yeni mərhələyə qədəm qoydu, ötən müddətdə Daxili Qoşunlar təyinatından irəli gələn vəzifələrin icrasında zəngin təcrübə qazandı, geniş quruculuq işləri aparıldı.

Maddi-texniki bazanın yenilənməsi, beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin qurulması, Daxili Qoşunların döyüş hazırlığına, hərtərəfli təchizatına, müasir silah-sursatına, texnikasına görə Avropanın qabaqcıl ölkələrinin müvafiq qurumları ilə müqayisə edilə bilən səviyyəyə yüksəlməsi Zəfərin əldə olunmasında vacib şərtlərdən biri oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında Silahlı Qüvvələrimizin tərkibində Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini verdilər. Ön cəbhənin bütün istiqamətlərində Daxili Qoşunların şəxsi heyəti düşmənə qarşı igidliklə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirdi. Hərbi qulluqçularımız yüksək vətənpərvərlik, peşəkarlıq və müasir döyüşaparma qabiliyyəti nümayiş etdirərək, "dəmir yumruq"la erməni işğalçılarının başını əzdilər. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətindən 66 nəfərin şəhid olması, 346 nəfərin isə yaralanması həm ağrı və kədər, həm də qürurlu, şərəfli salnamədir.

Ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusu "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edildi. 39 nəfər "Zəfər", "Qarabağ", "Azərbaycan bayrağı", "Rəşadət" ordeni ilə mükafatlandırıldı, yüzlərlə hərbi qulluqçu, ümumilikdə, 1833 medala layiq görüldü.

Bu qəhrəmanlarımızın missiyası heç də zəfərin əldə edilməsi ilə bitmədi. Onlar son 16 aydır işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunmasına da cavabdehdirlər. Nəzərə alaq ki, bu bölgədə təhlükəsizlik tədbirləri görülmədən bərpa-yenidənqurma işlərinin aparılması, dinc həyatın bərqərar olması, vətəndaşlarımızın məskunlaşması mümkün olmaz. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti polis əməkdaşları ilə birgə işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Xocavənd, Xocalı, Tərtər rayonlarının, eləcə də Şuşa şəhərinin ərazilərində ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiqi üzrə xidməti tapşırıqları yerinə yetirir.

### Ali Baş Komandan Daxili Qoşunların döyüş hazırlığı səviyyəsindən razıdır

Xidməti-döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə şəxsi heyətin mükəmməl hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün döyüş təlimi prosesinin keyfiyyətli təşkili, onun məzmun və üsullarının davamlı olaraq təkmilləşdirilməsi, yeni texnika, silahlar, xüsusi vasitələrin xüsusiyyətlərinin praktiki mənimsənilməsi, fəaliyyət taktikası üzrə məşqlərin real şəraitə uyğun keçirilməsi peşəkarlıq vərdişlərinin formalaşmasına əsaslı zəmin yaradır.

Hər bir hərbi hissə və bölmənin, hərbi qulluqçunun gücünün onun döyüş qabiliyyətinə bağlı olduğunu söyləyən Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Ş.Məmmədov qeyd edir ki, şəxsi heyətin döyüş təlimi prosesi komandanlığın xüsusi diqqət mərkəzindədir və ildən-ilə göstərilən sahədə yeniliklər tətbiq olunur: "Hazırda Daxili Qoşunların sərəncamında müasir standartlara cavab verən poliqon, təlim mərkəzləri və şəhərcikləri, idman zalları, atıcılıq tirləri, tədris vasitələri və ləvazimatları mövcuddur. Hərbi hissələrdə məşğələ sinifləri müasir tərtibata malikdir və lazımi texniki avadanlıqlarla təchiz edilib. Daxili Qoşunlarda döyüş təliminin öz xüsusiyyətləri var. Bu prosesdə Daxili Qoşunların vəzifələrindən irəli gələn praktiki fəaliyyətlərə əsas diqqət yönəldilir. Daxili Qoşunların taktikasının çoxşaxəli elementləri təlimlərdə məşq etdirilərək, ötən illərdə qazanılan təcrübə də nəzərə alınır. Müxtəlif bölmələrin yerinə yetirdikləri tapşırıqların xarakterinə uyğun olaraq, təlimlərdə onların döyüş hazırlığının yüksəldilməsi, qarşılıqlı dəstək və birgə fəaliyyət üsullarının təkmilləşdirilməsi xüsusi diqqət yetirilən məqamlardır. Döyüş təlimlərində şəxsi heyətin fiziki hazırlığının möhkəmləndirilməsinə, silahlardan sərrast atəş açmaq bacarıqlarının inkişaf etdirilməsinə, zirehli texnika, avtomobillərin idarə olunması məharətinin artırılmasına, çeviklik, dözümlülük, ahəngdarlıq, nizamlılıq vərdişlərinin aşılanmasına nail olunur".



Ötən illər ərzində Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində müasir standartlar və qabaqcıl təcrübə nəzərə alınmaqla əhatəli və planlı tədbirlər həyata keçirilib. Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub.

Bu nailiyyətlər Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir. İndiyədək Azərbaycan Prezidenti 11 dəfə Daxili Qoşunların müxtəlif bölgələrdəki hərbi hissələrində olub. Müzəffər Komandan şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, sosial-məişət şəraiti ilə də yaxından tanış olur, onların maddi-texniki təminatı ilə maraqlanır ki, bunlar da nəticə etibarilə hərbi qulluqçularımızın döyüş ruhunu yüksəldir. Hər bir səfər həm də yeni sosial, hərbi obyektin açılışı ilə əlamətdar olur. Mərhələlərlə və ardıcıl həyata keçirilən hərtərəfli quruculuq işləri nəticəsində Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməyə qadir olan, müvafiq qanunla statusu müəyyən edilmiş hərbi birləşmə kimi dövlətimizin etibarlı dayaqlarından birinə çevrilib.

Daxili Qoşunların inkişafı və döyüş hazırlığı səviyyəsinin artırılması Ali Baş Komandan tərəfindən daim yüksək qiymətləndirilib. "Son illər ərzində Daxili Qoşunlar sürətli inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq, vətənpərvərlik var. Bu, bizim üçün çox böyük nailiyyətdir" - söyləyən Prezident İlham Əliyev onu da qeyd edib ki, "Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir".

Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov da şərəfli xidmət yolu keçən, respublikanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət və qəhrəmanlıq göstərmiş Daxili Qoşunların Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq dövlətçiliyin sütunlarından birinə çevrildiyini vurğulayıb: "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin əvəzsiz diqqəti və qayğısı sayəsində bu gün davamlı inkişafda olan Daxili Qoşunların döyüş hazırlığı, təchizatı, şəxsi heyətinin xidmət şəraiti, sosial müdafiəsi yüksək səviyyədədir. Öz andına sadiq olan hərbçilərimizin respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, bütövlükdə, qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında professionallığı və qətiyyəti özünü Vətən müharibəsi dövründə bir daha təsdiqləmişdir".

**Müzəffər Komandanın qəhrəman əsgərləri olan Daxili Qoşunların şəxsi heyəti yubileyini "Dəmir yumruğ"un əsas zərbə güclərindən biri kimi qeyd edir. Bu isə ən böyük mükafat, ən səmimi təltifdir...**

**İxtiyar HÜSEYNLİ,**
**"Azərbaycan"**

2 - 2_Layout 1 15.03.2022 9:43 Page 1



# VƏTƏNƏ, DÖVLƏTƏ, XALQA SƏDAQƏT NÜMUNƏSİ









**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Daxili Qoşunlar Gününün növbəti ildönümünü qeyd edib. Bu münasibətlə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.**

**Sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış "Əbədi məşəl" önünə əklil qoyulub, Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının abidəsi ziyarət olunub.**



Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümünü qeyd edib. Bu münasibətlə həmin gün Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qurumun yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edən Daxili İşlər nazirinin müavini - Daxili Qoşunlar komandanı general-leytenant Şahin Məmmədov deyib ki, Ulu Öndər Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə Daxili Qoşunların şəxsi heyətinin Ermənistanın hərbi təcavüzünə qarşı döyüşə başladığı ilk gün – martın 12-si Daxili Qoşunlar Günü kimi təsis olunub. Ötən müddətdə Daxili Qoşunlar ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxıb. Torpaqlarımızın müdafiəsi uğrunda aparılan 1-ci Qarabağ müharibəsi zamanı döyüş əməliyyatlarında qoşunların 680 hərbi qulluqçusu həlak olub, 1178 nəfər yaralanıb, 5 nəfər isə itkin düşüb. Hərbi qulluqçulardan 9-u "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Daxili Qoşunların hərbi qulluqçularının böyük zəfərlə başa çatan Vətən müharibəsində də iştirak edərək mərdlik, qəhrəmanlıq, vətənpərvərlik nümunələri göstərdiklərini vurğulayan general-leytenant Ş.Məmmədov düşmənlə ağır döyüşlərdə qoşunların 66 hərbçisinin şəhid olduğunu, 346 nəfərin isə yaralandığını, cənab Prezident tərəfindən qoşunların Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirən 1377 hərbçisinin yüksək dövlət təltiflərinə, o cümlədən, 4 nəfərin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü bildirib.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Zati-alilərinin səmimi təbriklərini, ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, çıxışında təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini, ali diqqət və qayğı, eyni zamanda, ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilən, yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini vurğulayıb.

Sonra çıxış edən Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Nazir vurğulayıb ki, bu gün Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Müzəffər Ali Baş Komandanın əmri ilə düşmən həmlələrinə qarşı keçirilən "Dəmir yumruq" əks-hücum əməliyyatlarında hərbi qulluqçularımız bunu bir daha təsdiq etdilər.

İki ildən artıq müddətdə dünyanın, o cümlədən, Azərbaycanın son yüz ilin ən böyük qlobal çağırışlarından biri ilə üzləşdiyini, bəşəriyyətin COVID-19 virusuna qarşı mübarizə apardığını, xüsusi karantin rejimində yaşadığımızı vurğulayan general-polkovnik V.Eyvazov bu müddətdə polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının gücləndirilmiş iş variantında xidmət apardıqlarını, insanların həyati problemlərinin həllinə kömək etdiklərini vurğulayıb. Ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır. Məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr ən yüksək beynəlxalq standartlara uyğun texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib.

Diqqətə çatdırılıb ki, Daxili Qoşunlar 25 ildir ki, Türkiyənin Jandarm Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Bu illər ərzində Jandarm Qüvvələrinin yardımı ilə qoşunlarda xidməti-döyüş fəaliyyəti və kadr hazırlığı işi müasir tələblərə uyğun qurulub. Nazir V.Eyvazov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarm Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

Möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsi günlərində şəxsi heyətin ölkədə hərbi vəziyyət rejimini etibarlı təmin etməsini, bu gün isə işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini peşəkarlıqla davam etdirməsini vurğulayan nazir V.Eyvazov qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə Daxili İşlər nazirinin və nazir müavini - Daxili Qoşunlar komandanının imzaladıqları əmrlər elan olunub, mükafatlar sahiblərinə təqdim edilib.

**Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.**





**Daxili İşlər Nazirliyinin**
**Mətbuat xidməti**

3 - 2_Layout 1 15.03.2022 9:23 Page 1



Şəhidlərimiz

# DÖYÜŞ RUHLU, CƏNGAVƏR QƏTİYYƏTLİ YENİLMƏZ DÖYÜŞÇÜ İDİ...

**Keçdi qorxmaz oğullar**
**Od-alovun içindən.**
**Danışacaq nəsillər**
**Onların mərdliyindən.**

Nicat İsmayılovun yazdığı “Həsrət bitdi, Qarabağ” şeiri torpaqlarımızı işğaldan azad etmiş fədakar oğullarımıza həsr olunub. Qeyd etdiyim misralar həmin şeirdəndir. Həqiqətən də döyüş meydanında od-alovdan keçən qorxmaz və mərd oğullarımız 44 günlük Vətən müharibəsində düşməni məğlubiyyətə uğratdılar. O düşməni ki, həmvətənlərimizi soyqırıma məruz qoyub, onları doğma yurdlarından didərgin salıb, şəhər və kəndlərimizi xarabalığa çevirib, məscidlərimizə, qəbiristanlıqlarımıza qarşı vandalizm aktları törədib, təbii sərvətlərimizi talayıb, mədəni irs nümunələrimizi özününküləşdirib. Bütün bu vəhşiliklərin, azğınlıqların qisasını alan, təcavüzkarı darmadağın edən igidlər haqqında daim danışılacaq və yazılacaq.

Baş çavuş Hüseynov Fərid Fətəli oğlu Vətən müharibəsi şəhidlərindən biridir. O, 1994-cü il iyunun 23-də Cəlilabad rayonunun Bəcrəvan kəndində anadan olub. Fətəli Hüseynov və Tahirə Hüseynovanın üç övladından böyüyü idi. Bacısı və qardaşı var.

Fərid doğma kəndindəki tam orta məktəbdə 11 il oxuyub. Orta məktəbdə bir çox fəndən, o cümlədən, çağırışaqədərki hazırlıqdan yaxşı qiymət alıb. Müəllimləri və məktəbli yoldaşlarının hörmətini qazanıb. Ümumiyyətlə, valideynləri onu ləyaqətli gənc kimi yetişdiriblər, xarakteri, dünyagörüşü xalqımızın mənəvi dəyərlərinə ehtiram ruhunda formalaşıb. Həmçinin, inanclı, xeyirxah, el-oba qədrini bilən gənc kimi kənd camaatının yaddaşında qalıb.

2012-ci ilin iyul ayında Fərid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Bakıda yerləşən “N” saylı hərbi hissəsində, Hərbi Dəniz Qüvvələrinin tərkibində xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2014-cü ilin yanvar ayında ehtiyata buraxılıb.

Atasının sözlərinə görə, Fərid hələ məktəb illərindən hərbçi peşəsinə maraq göstərib. Cəlilabad rayonunda müxtəlif qoşun növlərinə aid hərbçilərin xidmət keçdiklərini, onların fərqli hərbi formalarını görən Fəridin hərb həyatı diqqətini həmişə cəlb edib. Müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq barədə qərarını ilk olaraq atasına söyləyib. Bu məsələdə atasının dəstəyi onu daha da ruhlandırıb.

2015-ci ilin iyul ayının 18-dən etibarən Fərid Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 17071 saylı hərbi



hissədə Vətən müharibəsinədək xidmət edərək, xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda atıcı, xüsusi təyinatlı dəstədə atıcı-yazar və xüsusi həmlə qrupunun yarımqrup komandiri vəzifələrinə təyin olunub. Bu vəzifələrdə üzərinə düşən tapşırıqların yerinə yetirilməsinə məsuliyyətlə yanaşıb, komandanlığın etimadını doğruldub. Hərbi xidmət müddətində dəfələrlə mükafatlandırılıb. Xüsusi təyinatlı olaraq keçirilən məşğələlərdə və praktiki təlimlərdə öz döyüş hazırlığının artırılmasına çalışıb, gərəkli hərbi biliklərə, peşə vərdişlərinə əzmkarlıqla yiyələnib. Mənəvi-psixoloji hazırlığı cəhətdən də xidmət etdiyi bölmədə fərqlənib. Yarımqrup komandiri kimi tabeliyindəki şəxsi heyətin təlim-tərbiyəsinə xüsusi diqqət yetirib, onlardan qayğısını əsirgəməyib.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı başlayan Vətən müharibəsi minlərlə silahdaşı kimi, Fəridin də həyatının ən çətin və şərəfli sınağı oldu. Müharibənin ilk günündən hərbi hissənin xüsusi təyinatlıları 16077 saylı hərbi hissəyə göndəriliblər. Burada yerləşdikləri müddətdə ön cəbhədə döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlaşıblar. Sonra döyüş bölgəsində fəaliyyətə başlayıblar.

17071 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı kapitan Anar Mahmudov mənimlə söhbətində bildirdi ki, Fərid onun təbeliyində 2020-ci ilin may ayından xidmət edib, intizamlı, xidmət mənafeyini üstün tutan, öz bilik və bacarıqlarını təkmilləşdirməyə səy göstərən, icraçılığı ilə seçilən hərbi qulluqçu olub.

Kapitan A.Mahmudov məlumat verdi ki, dəstənin şəxsi heyətinin döyüş yolu oktyabrın 15-i tarixində Füzuli şəhəri istiqamətində başlayıb. 99713 saylı hərbi hissənin xüsusi təyinatlıları ilə birlikdə bu istiqamətdə təcavüzkara qarşı iki gün vuruşublar. Füzuli şəhərində yerləşən hərbi hissədə düşmənin xeyli miqdarda müxtəlif növ silahsursatını, o cümlədən, tank əleyhinə “Kornet” raketlərini, eləcə də hərbi əmlakını qənimət götürərək aidiyyəti üzrə təhvil veriblər. Füzuli rayonunun Seyidmahmudlu kəndinin ətrafındakı adsız yüksəkliklərin ələ keçirilməsi uğrunda döyüş əməliyyatını dəstənin hərbi qulluqçuları heç bir digər bölmələrin tərkibində olmadan, ayrıca icra ediblər. Malik olduqları silahlarla işğalçıları şiddətli atəşə məruz qoyan xüsusi təyinatlılarımızın həmlələri nəticəsində düşmənin atəş nöqtələri susdurulub, əlverişli mövqelər nəzarətə götürülüb. Qeyd edilən döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı Fərid cəsurluq göstərib.

Həmsöhbətimin sözlərinə görə, Füzuli rayonunun Seyidmahmudlu, Dədəli, Mirzəcamallı, Aybasanlı, Xocavənd rayonunun Düdükçü, Ağbulaq, Edilli kəndlərinin ərazilərində axtarış, erməni diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması, ayrı-ayrı obyektlərdə gizlənmiş düşmən hərbçilərinin zərərsizləşdirilməsi üzrə fəaliyyət zamanı Fərid daim öndə olub, heç bir təhlükədən çəkinməyib.

Dəstə komandiri nəzərə çatdırdı ki, oktyabrın 30-dan sonra Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birlikdə Şuşa istiqamətində irəliləmək və şəhəri azad etmək barədə döyüş tapşırığı alıblar. Bir neçə gün Şuşaya doğru Xocavənd rayonunun Hadrut qəsəbəsi, Böyük Tağlar kəndi, Xocalı rayonunun Çanaqçı, Sığnaq kəndlərindən, dağlıq-meşəlik ərazilərdən keçməklə, Kiçik Kirs zirvəsi, Laçın dəhlizi istiqamətlərində irəliləyiblər. Noyabrın əvvəlində Şuşa ətrafında döyüşlər zamanı ermənilərin Laçın dəhlizi ilə hərəkətinin qarşısı alınıb, yolun üzərindəki bir sıra vacib mövqelər ələ keçirilib. Bundan əlavə, Şuşanın yaxınlığındakı Daşaltı kəndi düşmənlərdən təmizlənib. Beləliklə, bu istiqamətdən Şuşaya həmlələr ediblər. Silahdaşları ilə birgə mətinliklə vuruşan Fərid noyabrın 7-də Şuşanın yaxınlığında düşmənin artilleriyasının atəşi nəticəsində mərmi qəlpələrindən ağır yaralanaraq şəhid olub.



17071 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində texnik, Vətən müharibəsi iştirakçısı gizir Xəzər Tahirov qeyd etdi ki, müharibədə qrup komandiri kimi fəaliyyət göstərib. Döyüşlər zamanı dəfələrlə Fəridin mərdliyinin şahidi olduğunu vurğuladı. Füzuli rayonunun Seyidmahmudlu kəndi ətrafındakı adsız yüksəkliklər alındıqda Fəridin həmin əraziyə üçrəngli bayrağımızı sancdığını, o anda sevinc və qürur hissi yaşadıqlarını söylədi. Xəzər bildirdi ki, Fərid Şuşaya da bayrağımızı sancmağı arzulayırdı. Müharibənin sonuna yaxın, Şuşa uğrunda həlledici döyüşdə bir neçə metrliyinə düşərək partlayan mərminin qəlpələri onun həyatına son qoyub. Şəhidin nəşi ayrılmış təxliyyə qrupu tərəfindən döyüş zonasından çıxarılıb.

Vətən müharibəsi iştirakçıları, 17071 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunda iriçaplı pulemyot yarımqrupunun komandiri baş çavuş Aşqın Əliyev və xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-qumbaraatan çavuş Vahid Cavadzadə də şəhidin yaxın silahdaşları olublar. Onlar Fəridin vətənpərvər bir hərbi qulluqçu kimi xüsusi təyinatlı dəstədə həvəslə xidmət etdiyini, yoldaşlıqda etibarlı olduğunu, iradə və təmkini ilə seçildiyini vurğuladılar. Ön cəbhədə ilk gündən son döyüşədək xüsusi təyinatlı adına layiq vuruşduğunu və şəhadətə qovuşduğunu bildirdilər.

18 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Fəridin döyüş meydanında hərbi əməliyyat nəticəsində partlayış və qəlpələrlə zədələnmədən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz 11 noyabr 2020-ci ildə Bəcrəvan kəndinin qəbiristanlığında dəfn olunub. Fəridin qohumu gizir Təbriz İsayev, məktəbli yoldaşı olmuş Mirnağı Şərifov da Vətən müharibəsi şəhidləridir. Mirnağı ilə Fəridin məzarları yanaşı yerləşir.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il, 25 dekabr 2020-ci il tarixli sərəncamlarla baş çavuş F.Hüseynov ölümündən sonra “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

Bəcrəvan kəndindən 7 nəfər Vətən torpaqları uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb, müharibədə iştirak edənlərin bir qismi isə qazi olaraq ön cəbhədən qayıdıb. Rusiyada işləyən həmyerlilərin maddi dəstəyi və yerli sakinlərin köməyi ilə kənddə şəhidlərin xatirəsinə abidə kompleksi yaradılıb.

Bəcrəvan kəndindəki tam orta məktəbdə şəhidlərin şəkilləri əks olunan fotostend hazırlanıb, 10b sinfinə Fəridin adı verilib.

Hüseynovlar ailəsinin yaşadığı evdə şəhidin xatirə guşəsi düzəldilib. Fərid evli idi, ölümündən sonra oğlu dünyaya gəlib, vəsiyyəti nəzərə alınaraq, adını Əbülfəz qoyublar.

Şəhidin qardaşı Murad Hüseynov Beyləqan rayonunda ordu sıralarında hərbi xidmət keçib. Hazırda Cəlilabad Rayon Polis Şöbəsinin post-patrul bölüyündə polis kiçik serjantı olaraq vətəndaşlarımızın asayişi keşiyində dayanır.

Şəhidlik müqəddəs zirvə, şəhidlər əbədiyyət sakinləridir. Vətən torpaqlarını öz canları bahasına bütövləşdirən Fərid kimi oğulları qədirbilən xalqımız heç vaxt unutmayacaqdır!

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# Şuşada “Azərbaycan əsgəri, səninləyik” sosial aksiyası təşkil olunub









“ASAN xidmət”in və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının birgə təşkilatçılığı, “ASAN Könüllüləri” təşkilatının dəstəyilə “Azərbaycan əsgəri, səninləyik” sosial aksiyası təşkil olunub.

12 Mart - Daxili Qoşunlar Günü ilə əlaqədar təşkil olunan tədbir işğaldan azad olunmuş Şuşa şəhərində baş tutub.

Sosial aksiyada Şuşa şəhərinin müxtəlif ərazilərində xidmət edən Daxili Qoşunların şəxsi heyətinə “ASAN Könüllüləri” təşkilatının “Əsgərə məktub” layihəsi çərçivəsində vətəndaşlarımız tərəfindən ünvanlanmış məktublar çatdırılıb.

Tədbirdə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri tərəfindən 44 günlük Vətən müharibəsində əldə edilmiş parlaq qələbədən söz açılıb, şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib. Bu il 30 illik yubileyini qeyd edən Daxili Qoşunların şəxsi heyətinin ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, o cümlədən, Vətən müharibəsindəki döyüş yolundan söz açılıb.

“Azərbaycan əsgəri, səninləyik” sosial aksiyasının məqsədi Azərbaycan Silahlı Qüvvələrinə vətəndaşlarımızın daimi dəstəyini, etibar və inam hissini nümayiş etdirməkdir.

**“ASAN xidmət”**

# EŞİTMƏ VƏ NİTQ MƏHDUDİYYƏTLİ GƏNCLƏR HƏRBİ HİSSƏDƏN XOŞ TƏƏSSÜRATLARLA AYRILIBLAR

Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyilə “Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım” İctimai Birliyinin 2022-ci ilin fevral ayından başlayan “Jest dilində Vətən müharibəsi iştirakçılarının tanıdılması və vətənpərvərlik mövzusunda tədbirlərin təşkili” adlı layihəsi çərçivəsində birliyin sədri Cəmilə xanım Abdulova eşitmə və nitq məhdudiyyətli olan 9 nəfər gənclə birlikdə mart ayının 6-da Daxili Qoşunların 67987 saylı hərbi hissəsində olublar.

Eşitmə və nitq məhdudiyyətli gənclər hərbi hissədə günün nizam qaydalarına uyğun tədbirlər, hərbi qulluqçuların xidmətə hazırlıqları, öz vəzifələrini necə yerinə yetirmələri, onlar üçün yaradılmış hərtərəfli məişət şəraiti ilə tanış olub, qoşunların istifadəsində olan silahsursata, hərbi texnikalara baxış keçirib, əsgər yeməkxanasında şəxsi heyətlə birgə nahar yeməyində iştirak ediblər.



Sonra qonaqlar Daxili Qoşunların Muzeyinə baş çəkiblər. Muzeydə yaradılan guşələr, fotostendlər, təqdim olunan müxtəlif eksponatlar, qorunub saxlanılan sənədli materiallar, şəhid və qazi hərbi qulluqçularımızın şəxsi əşyaları, hərbi formaları, xidməti-döyüş fəaliyyətində istifadə olunmuş silahlar, ayrı-ayrı hərbi ləvazimatlar, rabitə avadanlıqları, bütövlükdə, mövcud ekspozisiya layihə iştirakçılarını dərindən maraqlandırıb. Onlara Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunların şəxsi heyətinə diqqət və qayğısı, qoşunların inkişafı yönündə görülən çoxşaxəli işlər, Birinci Qarabağ müharibəsində və Vətən müharibəsində şərəfli döyüş yolumuz, “Azərbaycan Respublikasının Milli Qəhrəmanı”, habelə “Vətən Müharibəsi Qəhrəmanı” adlarına layiq görülən hərbi qulluqçularımız, bununla yanaşı, ölkəmizdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin keşiyində mətin dayanan şəxsi heyətin mübariz xidməti barədə geniş məlumat verilib.





Daha sonra gənclər Daxili Qoşunların xidməti itləri yetişdirmə məntəqəsində xidməti heyvanların saxlanılma şəraiti, yetişdirilməsi, onlara göstərilən qulluq, eləcə də xidmətə hazırlanması ilə yaxından tanış olublar.

Bununla yanaşı, hərbi hissədə eşitmə və nitq məhdudiyyətli gənclərin iştirakı ilə ictimai birliyin hazırladığı “Mən əsgərəm” adlı videoçarxın çəkilişləri aparılıb.

Qonaqlar hərbi hissədən xoş təəssüratlarla ayrılıblar.

**kapitan Xədicə Hacızadə**

4_Layout 1 15.03.2022 10:40 Page 1



# “ŞƏXSİ HEYƏT QARŞIYA QOYULAN TAPŞIRIQLARIN İCRASINA HƏR ZAMAN HAZIRDIR”



Vətən müharibəsində igidlik, fədakarlıq göstərən xüsusi təyinatlılarımız, sözün həqiqi mənasında, hər birimizin, bütövlükdə, Azərbaycan xalqının qürur yeridir. Bu mənada, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlılarının döyüş meydanında göstərdikləri qəhrəmanlıqlar da biz hərbi qulluqçular həm sevindirir, həm də hər birimizin xidmət yolunda örnəkdir.

99713 saylı hərbi hissədə olarkən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elsevər Fətəliyev xüsusi təyinatlı dəstənin keçən ilin xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə birincilik qazandığını söylədi. Söhbət əsnasında məlum oldu ki, həmin gün Daxili Qoşunların Baş İdarəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit polkovnik-leytenant Tural Novruzov tərəfindən xüsusi təyinatlı dəstənin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılır. Polkovnik-leytenant T.Novruzov ən çətin sınağı döyüş meydanında keçən, qoşunlar üzrə ən hazırlıqlı xüsusi təyinatlıların bu hərbi hissədə komplektləşdirilməsinin təsadüfi olmadığını söylədi: “Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının “99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin tədris proqramı”nın təsdiq edilməsi barədə” müvafiq əmrinin tələblərinin icra vəziyyəti yoxlanan zaman dəstədə tədris prosesinin ümumən rəhbər sənədlərin tələblərinə uyğun təşkil edildiyi müəyyən




olunub. Həmçinin, xüsusi təyinatlı dəstədə idarəetmənin vəziyyəti, döyüş təliminin planlaşdırılması və müvafiq tədris proqramının icrası, dəstənin şəxsi heyətinin xüsusi təlim-atış çalışmaları üzrə praktiki atəş qabiliyyəti, fiziki hazırlığı, alpinist hazırlığı, eləcə də hərbi topoqrafiya və xüsusi taktiki hazırlıq üzrə bilik və bacarığı yoxlanılıb, qəflətən qarşıya çıxan tapşırıqların yerinə yetirilməsi zamanı düzgün, çevik və mütəşəkkil fəaliyyətin təşkili üzrə praktiki köməklik göstərilib. Hərbi qulluqçuların fiziki hazırlığı da qənaətbəxş olub, xüsusi taktiki hazırlıq və hərbi dağçılıq üzrə qrup və yarımqrupların şəxsi heyəti müvafiq normativləri uğurla yerinə yetirib. Nəticə etibarilə müəyyən olunub ki, xüsusi təyinatlı dəstə qarşıda duran tapşırıqların icrasına ümumən hazırdır, dəstəyə rəhbərlik edən komandir mayor Elçin Babayevin iş üslubu, idarəçilik fəaliyyəti qənaətbəxşdir”.

Praktiki tədrisə üstünlük verdiyini qeyd edən mayor E.Babayev diqqətə çatdırdı ki, keçirilən praktiki məşğələlər şəxsi heyətin peşə vərdişlərinin artırılmasında çox əhəmiyyətli rol oynayır. Dəstə komandiri təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına da ciddi riayət olunduğunu bildirdi. O, həmçinin, qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsində bundan sonra da yorulmadan hazırlıqların davam etdiriləcəyini vurğuladı: “Hər bir xüsusi təyinatlı öz hərbi peşəsini, vəzifə borcunu dərindən öyrənməli, təhkim olun-



muş silaha mükəmməl yiyələnməli, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməlidir”.

**baş leytenant Nigar Ağayeva**

*idman*

# DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI BİRİNCİ YERİ QAZANIB



Daxili İşlər nazirinin müvafiq əmrinə əsasən, fevralın 23-də daxili işlər orqan və hissələri arasında atıcılıq üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib.

Daxili Qoşunların yığma komandası güllə atıcılığı üzrə DİN-in birinciliyi uğrunda keçirilən atıcılıq yarışında 7 idmançı və 1 nümayəndə ilə təmsil olunub. Yarışın proqramına uyğun olaraq, PM-1 tapşırığının yerinə yetirilməsi üzrə 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunun atıcı-snayperi çavuş Elşən Əlməmmədov 2-ci, 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupu komandirinin müavini-snayper gizir Şamil Əhmədov isə 3-cü yerə layiq görülüb. Gizir Ş.Əhmədov, həmçinin, PM-2 tapşırıqlarını uğurla yerinə yetirib və 2-ci yeri tutub.

Qadınlar arasında PM-1 tapşırığının yerinə yetirilməsi üzrə Ali Hərbi Məktəbin maddi-texniki təminat xidmətlərinin silah xidmətində kargüzar baş çavuş Minat Gülümova 2-ci yerə sahiblənib.

Ümumilikdə, yarışın nəticələri üzrə Daxili Qoşunların yığma komandası 608 xal toplayaraq 13 komanda arasında birinciliyi əldə edib.

Yarışlarda müvəffəqiyyət qazanmış hərbi qulluqçular Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı, Ali Hərbi Məktəbin rəisi və hərbi hissə komandirlərinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# BÖLÜYÜN BACARIQLI VƏ İNTİZAMLI ƏSGƏRİ

67987 saylı hərbi hissənin intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan əsgər Samir Allahverdiyev komendant bölüyündə xidmət edir. Bölük komandiri kapitan Zeynal Cəfərov tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər S.Allahverdiyev 2000-ci il avqustun 14-də Gədəbəy rayonunun Alnabat kəndində anadan olub. 2006-2017-ci illərdə Şəmkir rayonunun Sərxan kəndində tam orta məktəbdə təhsil alıb. 2017-ci ildə Gəncə Dövlət Universitetinin tarix-coğrafiya fakültəsinə qəbul olunub. Ali təhsilini başa vurduqdan sonra 2021-ci ilin iyul ayının 1-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gədəbəy Rayon Şöbəsindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi hissənin komendant bölüyündə atıcı-əsgər vəzifəsindədir. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir. Verilən tapşırıqların icrasında sayıqlıq göstərir, vəzifələrini keyfiyyətlə yerinə yetirir.

Xidmət müddəti ərzində hərbi hissə komandiri tərəfindən “Fərman”la mükafatlandırılıb və hərbi qulluqçunun yaşadığı yerə onun hərbi xidmət borcunu nümunəvi yerinə yetirməsi haqqında məktub göndərilib.



Hərbçi ləyaqətini hər şeydən üstün tutan əsgər S.Allahverdiyev Daxili Qoşunlarda xidməti ilə fəxr etdiyini vurğuladı. O, qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmağı, həyatını, bütün bilik və bacarığını Vətənə xidmətə həsr etməyi arzulayır.

**baş leytenant Nigar Ağayeva**

# KOMENDANT BÖLÜYÜ HƏRBİ HİSSƏNİN SEÇİLƏN BÖLMƏLƏRİ ARASINDADIR

Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin komendant bölüyü Döyüş Bayrağını, nəqliyyat vasitələrinin saxlanıldığı parkı, ərazidəki anbarları, 64412 saylı hərbi hissənin anbarlarını etibarlı mühafizə və müdafiə edir. Xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil olunur.

Baş leytenant Xalid Mustafayev bölüyün komandiridir. O, 2011-2015-ci illərdə Türkiyə Quru Qoşunlarının Ali Hərbi Məktəbində təhsil alıb. 2015-ci ildən Daxili Qoşunlarda xidmətini davam etdirir. 2021-ci ilin avqust ayına kimi 16076 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib. Həmin tarixdən etibarən 25031 saylı hərbi hissədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Komandir kimi bölüyün döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi üçün daim çalışır, şəxsi heyətə nümunə olmağı bacarır.

Zabit xidmətin təşkili barədə danışarkən diqqətə çatdırdı ki, xidmətə cəlb edilməzdən öncə komandir müavinləri tərəfindən şəxsi heyətə təlimat keçilir, hərbi nizamnamələrin müvafiq maddələri çatdırılır. Bundan əlavə, hərbi qulluqçularla fərdi söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziy-




yətləri öyrənilir, tibb xidmətinin həkimləri tərəfindən sağlamlıqları yoxlanılır və ciddi nəzarətdə saxlanılır.

O əlavə etdi ki, hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq leytenant Vüsal Məmmədov da hər gün qarovul xidmətinə cəlb edilən şəxsi heyətlə fərdi söhbətlər aparır. Hər bir hərbi qulluqçuya fərdi yanaşan psixoloq bildirdi ki, qarovul xidməti böyük məsuliyyət və diqqət tələb etdiyindən, nizam-intizamı, təlim-tər-



biyəsi ilə fərqlənən, sağlamlıq durumu qaydasında olan hərbi qulluqçular bu xidmətə cəlb olunurlar: “Hərbi qulluqçularla aparılan fərdi söhbətlərin çox böyük əhəmiyyəti vardır. Bu söhbətlər zamanı şəxsi heyətin əhvalı, xarakterik xüsusiyyətləri öyrənilir, onların psixodiaqnostikası aparılır. Bu prosesdə hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini, bölük komandirləri, onların müavinləri və digər məsul hərbi qulluqçuların iştirakı ilə kompleks iş aparılır”.

Məlumdur ki, məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün



bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, nizam-intizamının qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu baxımdan müvafiq məşğələ cədvəlinə uyğun olaraq, hərbi qulluqçularla atəş hazırlığı, fiziki hazırlıq, ictimai-siyasi hazırlıq və Daxili Qoşunların taktikası üzrə məşğələlər təşkil olunur.

Bundan əlavə, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Azər Qurbanov tərəfindən tərbiyə işi tədbirləri keyfiyyətlə keçirilir. Bunun nəticəsidir ki, bu gün komendant bölüyü hərbi hissənin seçilən bölmələri arasındadır.

Sonda baş leytenant X.Mustafayev bölüyün qabaqcıl hərbi qulluqçularından kiçik çavuş Ayxan Darçınov, baş əsgərlər Muxtar Bayramov, Nihat Həsənov və əsgər Alim Salehovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını dedi.

**kapitan Xədicə Hacızadə**

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Rasim İsmayılova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı polkovnik Şahin Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı gizir Elşən Babayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı MAXE əsgər Azər Məmmədquliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000